

# Təlimçi:
# Rizvan Fikrətoğlu
# 0513461438

# ÜÇÜNCÜ BÖLMƏ.

# DÖVLƏT HAKİMİYYƏTİ

## V fəsil

## QANUNVERİCİLİK HAKİMİYYƏTİ

# Maddə 81. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi

**AR-da qanunvericilik hakimiyyətini AR-ın MM-I həyata keçirir.**

# Maddə 82. AR Milli Məclisinin say tərkibi

**AR-ın MM-i *125 deputatdan* ibarətdir.**

## Maddə 83. AR Milli Məclisi deputatlarının seçkilərinin əsasları

**AR MM-nin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.**

## Maddə 84. AR Milli Məclisi çağırışının səlahiyyət müddəti

- **AR MM-nin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Müharibə şəraitində hərbi əməliyyatların aparılması AR-ın MM-nə seçkilərin keçirilməsini mümkün etmədikdə AR MM-nin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə** ***qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən AR-ın Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.***
- **AR MM-nin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.**
- **AR MM-nin deputatlarının səlahiyyət müddəti AR MM-nin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.**
- **AR MM-nin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.**

# Maddə 85. AR Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər

- **AR-ın *seçkilərdə iştirak etmək hüququna malik olan* hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada AR MM-nin deputatı seçilə bilər.**
- **İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər AR-ın MM-nə deputat seçilə bilməzlər.**

# Maddə 86. AR Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi

**Seçkilərin nəticələrinin düzgünlüyünü qanunla müəyyən olunmuş qaydada AR-ın Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.**

# Maddə 87. AR Milli Məclisi deputatlarının səlahiyyətinin bitməsi

- AR MM-i deputatlarının səlahiyyətləri AR MM-nin yeni çağırışının ilk iclas günü bitir.
- AR MM-i deputatlığından çıxanların yerinə seçkilər AR MM-nin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir.
- AR-ın MM-nin 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

## Maddə 88. AR Milli Məclisinin sessiyaları

- AR-ın MM-i hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. AR MM-nin 83 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra AR MM-nin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır. AR-ın MM-nə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzsə AR MM-nin ilk iclasının keçirilmə vaxtını AR Konstitusiya Məhkəməsi müəyyən edir.
- AR MM-nin növbədənkənar sessiyalarını AR MM-nin sədri AR Prezidentinin və ya AR MM-nin 42 deputatının tələbi əsasında çağırır.
- AR MM-nin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.
- AR MM-nin sessiyalarının iclasları açıq keçirilir. AR MM-nin 83 deputatının tələbi ilə və ya AR Prezidentinin təklifi ilə AR MM-ninsessiyasının qapalı iclası keçirilə bilər.

# Maddə 89. AR Milli Məclisi deputatlığından məhrumetmə və AR Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi

- I AR MM-nin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:
- 1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;
- 2) AR vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;
- 3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
- 4) dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);
- 5) özü imtina etdikdə;
- *6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;*
- *7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.*
- AR MM-nin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.
- AR Mm-nin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

# Maddə 90. AR Milli Məclisinin deputatlarının toxunulmazlığı

- **Səlahiyyət müddəti ərzində AR MM-i deputatının şəxsiyyəti toxunulmazdır. AR MM-nin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. AR MM-nin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda AR MM-ni ndeputatını tutan orqan bu barədə dərhal AR Baş prokuroruna xəbər verməlidir.**
- ***AR MM-nin deputatının toxunulmazlığına yalnız AR Baş prokurorunun təqdimatına əsasən AR MM-nin qərarı ilə xitam verilə bilər.***

## Maddə 91. AR Milli Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar

**AR MM-nin deputatları AR MM-dəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.**

# Maddə 92. AR Milli Məclisinin işinin təşkili

**AR-ın MM-i öz iş qaydasını müəyyən edir və MM-in müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, komitələr və komissiyalar təşkil edir, Hesablama Palatası yaradır.**

# Maddə 93. AR Milli Məclisinin aktları

- AR-ın MM-i öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir.
- AR-ın MM-də Konstitusiya qanunları, qanunlar və qərarlar bu Konstitusiya ilə nəzərdə tutulmuş qaydada qəbul edilir.
- III AR MM-nin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.
- Qanunlarda və AR MM-nin qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz.

# Maddə 94. AR Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar

AR-ın MM-i aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

- 1) bu Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı;
- 2) AR Prezidentinin seçkiləri;
- 3) AR-ın MM-nə seçkilər və AR MM-nin deputatlarının statusu;
- 4) referendum;
- 5) məhkəmə quruluşu və hakimlərin statusu; prokurorluq; vəkillik və notariat;
- 6) məhkəmə icraatı, məhkəmə qərarlarının icrası;
- 7) bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu;
- 8) fövqəladə vəziyyət rejimi; hərbi vəziyyət rejimi;
- 9) dövlət təltifləri;
- 10) fiziki və hüquqi şəxslərin statusu;
- 11) mülki hüquq obyektləri;
- 12) əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik;
- 13) mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ;
- 14) ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq;
- 15) maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlər;

# Maddə 94. AR Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar *(ardı)*

- **16) əmək münasibətləri və sosial təminat;**
- **17) cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi;**
- **18) müdafiə və hərbi qulluq;**
- **19) dövlət qulluğu;**
- **20) təhlükəsizliyin əsasları;**
- **21) ərazi quruluşu; dövlət sərhədi rejimi;**
- **22) beynəlxalq müqavilələrin təsdiqi və ləğvi;**
- **23) rabitə və nəqliyyat işi;**
- **24) statistika, metrologiya və standartlar;**
- **25) gömrük işi;**
- **26) ticarət işi və birja fəaliyyəti;**
- **27) bank işi, mühasibat, sığorta.**
- **II. Bu maddənin 2, 3, 4-cü bəndlərində göstərilən məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir.**
- **III. Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.**

# Maddə 95. AR Milli Məclisinin həll etdiyi məsələlər

AR MM-nin səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

- 1) AR MM-nin işinin təşkili;
- 2) AR Prezidentinin təqdimatı ilə AR diplomatik nümayəndəliklərinin təsis edilməsi;
- 3) inzibati ərazi bölgüsü;
- 4) dövlətlərarası və AR-ın qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;
- 5) AR Prezidentinin təqdimatına əsasən AR dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət;
- 6) AR Prezidentinin təqdimatı ilə AR-ın İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;
- 7) AR Prezidentinin təqdimatına əsasən AR-ın hərbi doktrinasının təsdiqi;
- 8) bu Konstitusiyada nəzərdə tutulmuş hallarda AR Prezidentinin fərmanlarının təsdiqi;
- 9) AR Prezidentinin təqdimatına əsasən AR-ın Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi;
- 10)AR Prezidentinin təqdimatına əsasən AR Konstitusiya Məhkəməsi, AR Ali Məhkəməsi və AR apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi;
- 11) AR-ın Prezidentinin təqdimatına əsasən AR Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

# Maddə 95. AR Milli Məclisinin həll etdiyi məsələlər

- 12) AR Konstitusiya Məhkəməsinin təqdimatına əsasən AR Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması;
- 13) AR Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması;
- 14) AR-ın NK-nə etimad məsələsinin həll edilməsi;
- 15) AR Prezidentinin təqdimatına əsasən AR Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
- 16) AR Prezidentinin təqdimatına əsasən AR Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi;
- 17) AR Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi;
- 18) referendum təyin edilməsi;
- 19) amnistiya.
- 20) bələdiyyələrin hesabatlarının dinlənilməsi.
- II. Bu maddənin 1-5-ci bəndlərində göstərilən məsələlərə dair 63 səs çoxluğu ilə qanunlar, qalan məsələlərə dair isə, bu Konstitusiyada başqa qayda nəzərdə tutulmayıbsa, eyni qaydada qərarlar qəbul edilir.
- III. Bu Konstitusiyada AR MM-nin səlahiyyətlərinə aid edilən digər məsələlərə, AR MM-nin işinin təşkili ilə əlaqədar məsələlərə, AR MM-nin münasibətinin bildirilməsi zəruri olan məsələlərə dair də qərarlar qəbul edilir.
- IV. Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

# Maddə 96. Qanunvericilik təşəbbüsü hüququ

- AR-ın MM-də qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri AR MM-nin müzakirəsinə təqdim etmək hüququ) AR MM-nin deputatlarına, AR-ın Prezidentinə, AR-ın Ali Məhkəməsinə, AR-ın seçki hüququ olan 40 min vətəndaşına, AR-ın Prokurorluğuna və NMR-ın Ali Məclisinə mənsubdur. MS PAPA
- AR Prezidentinin, AR Ali Məhkəməsinin, AR-ın seçki hüququ olan 40 min vətəndaşının, AR Prokurorluğunun və NMR Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında AR MM-nin müzakirəsinə verdiyi qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.
- Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən subyektin razılığı ilə edilə bilər.
- IV. Qanunvericilik təşəbbüsü qaydasında AR Prezidentinin, AR Ali Məhkəməsinin, AR-ın seçki hüququ olan 40 min vətəndaşının AR Prokurorluğunun və ya NMR Ali Məclisinin AR MM-nə təqdim etdiyi qanun və ya qərar layihələri iki ay ərzində səsə qoyulur.
- V. Qanun və ya qərar layihəsini AR-ın Prezidenti, AR-ın Ali Məhkəməsi, AR-ın Prokurorluğu və ya NMR Ali Məclisi təcili elan edibsə, bu müddət 20 gün təşkil edir. PAPA
- AR-ın seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunla müəyyən edilir.
- VII. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.

# Maddə 97. Qanunların imzalanmaq üçün təqdim olunması müddəti

- **Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində AR-ın Prezidentinə imzalanmaq üçün təqdim edilir.**
- **Təcili elan olunan qanun layihəsi AR-ın Prezidentinə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində təqdim edilir.**

## Maddə 98. AR Milli Məclisinin aktlarının qüvvəyə minməsi

**Qanunun və AR MM-nin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.**

## Maddə 98$^{1}$. AR Milli Məclisinin buraxılması

- **AR MM-nin eyni çağırışı bir il ərzində iki dəfə AR-ın NK-nə etimadsızlıq göstərdikdə və ya AR Konstitusiya Məhkəməsinin, AR Ali Məhkəməsinin və AR Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri AR-ın Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, AR-ın Prezidenti AR-ın MM-ni buraxır.**
- **Növbədənkənar seçkilərdə seçilən AR MM-nin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda AR-ın MM-nə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən AR MM-nin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.**